*«Dövlət qeydiyyatına alınmışdır»*
*Azərbaycan Respublikasının*
*Ədliyyə Nazirliyi*
*Qeydiyyat № 2924*
*14 oktyabr 2002-ci il*
*Nazir*
*F.MƏMMƏDOV*

*«Təsdiq edirəm»*
*Azərbaycan Respublikasının*
*İqtisadi İnkişaf Nazirliyi*
*Əmr № 70*
*09 oktyabr 2002-ci il*
*Nazir*
*F.ƏLİYEV*

# Xüsusi razılığın (lisenziyanın) forması və onun doldurulması Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 02 sentyabr tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar»a əsasən hazırlanmışdır və lisenziya verən icra hakimiyyəti orqanları tərəfindən lisenziyanın doldurulması qaydalarını müəyyən edir.

1.2. Lisenziya müvafiq sahibkarlıq fəaliyyəti növünü həyata keçirməyə icazə verən rəsmi sənəddir.

1.3. Lisenziya qanunvericiliklə müəyyən olunmuş müvafiq sənədlər təqdim edildikdən sonra aidiyyatı icra hakimiyyəti orqanı tərəfindən doldurulur.

1.4. Lisenziyanın forması lisenziyalaşdırma sahəsində xüsusi səlahiyyətli orqan tərəfindən təsdiq olunur.

## 2. Lisenziyanın doldurulması

2.1. Lisenziya lisenziyanı verən icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının dövlət dilində (Azərbaycan dili) doldurulur.

2.2. Lisenziyada aşağıdakı qeydlər aparılır:

2.2.1. Lisenziyanın qeydiyyata alınması haqqında məlumat (qeydiyyat nömrəsi və verilmə tarixi).

2.2.2. Lisenziya verən dövlət orqanlarının adı.

2.2.3. Həyata keçirilməsinə lisenziya verilən fəaliyyət növü.

2.2.4. Hüquqi şəxslər üçün – lisenziya verilən hüquqi şəxsin adı və hüquqi ünvanı.

2.2.5. Fiziki şəxslər üçün – adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumat (şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı).

2.2.6. Lisenziyanı təsdiq edən məsul şəxs haqqında məlumat (adı, soyadı və vəzifəsi).

2.2.7. Lisenziya lisenziyanı verən dövlət orqanının rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

2.3. Lisenziyada gün və ay ikirəqəmli, il isə birrəqəmli ərəb rəqəmləri ilə yazılır.

2.4. Lisenziyada səhv və qeyri-dəqiq yazılar aşkar edildikdə lisenziya blankı qanunvericiliklə müəyyən olunmuş qaydada ləğv edilir və bu barədə lisenziyalaşdırma sahəsində xüsusi səlahiyyətli orqana məlumat verilir.

2.5. Lisenziya blanklarında düzəlişlərin edilməsinə yol verilmir və belə blankların hüquqi qüvvəsi yoxdur.

2.6. Lisenziya oğurlandıqda, yandıqda, itirildikdə, yararsız hala salındıqda qanunvericiliklə müəyyən edilən qaydada lisenziya sahibinin müraciətinə əsasən lisenziyanın dublikatı ümumi qaydada doldurulmaqla verilir. Bu halda lisenziya blankının yuxarı sağ tərəfində iri hərflərlə «DUBLİKAT» sözü yazılır və lisenziyanı verən dövlət orqanının rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

2.7. Lisenziyalaşdırılan fəaliyyət növü ərazi baxımından ayrı-ayrı obyektlərdə həyata keçirildiyi halda, lisenziya sahibinə lisenziya ilə birlikdə hər bir obyekt üçün onun ünvanı göstərilməklə lisenziyanın surəti ümumi qaydada doldurulmaqla verilir. Bu halda lisenziya blankının yuxarı sağ tərəfində iri həriflərlə «SURƏTİ» sözü yazılır və lisenziyanı verən dövlət orqanının rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

2.8. Lisenziyanın dublikatı və surəti bu qaydalarla müəyyən olunmuş qaydada tərtib olunmadıqda etibarsız hesab edilir.

2.9. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən lisenziya verildikdən sonra lisenziyanın vahid reyestrinin aparılması üçün müəyyən olunmuş qaydada lisenziyalaşdırma sahəsində xüsusi səlahiyyətli orqanına məlumat verilir.

## 3. Lisenziya verən dövlət orqanlarının vəzifəli şəxslərinin məsuliyyəti

3.1. Bu qaydaların tələblərini pozmuş vəzifəli şəxslər qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

***«Azərbaycan Respublikası Mərkəzi İcra Hakimiyyəti Orqanlarının Normativ Hüquqi aktlarının Bülleteni»ndə dərc edilmişdir (2002-ci il, № 10-11, səh. 5) («VneshExpertService» LLC).***

***29 may 2009-cu il tarixli, F-69 nömrəli Əmrə əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*Əlavə 1*

# Azərbaycan Respublikasının Dövlət Gerbi

# LİSENZİYA

# Nömrəsi

Qeydiyyat nömrəsi _____________ «_____»___________________200____il

________________________________________________________________________

*(lisenziyanı verən dövlət orqanının adı)*

________________________________________________________________________

________________________________________________________________________

*(fəaliyyət növü)*

__________________________________________ ____ həyata keçirməyə icazə verir.

Lisenziya verilib ________________________________________________________

________________________________________________________________________

*(hüquqi şəxslər üçün – lisenziya verilən hüquqi*

________________________________________________________________________

*şəxsin adı və hüquqi ünvanı; fiziki şəxslər üçün – adı, atasının adı, soyadı, şəxsiyyət*

________________________________________________________________________

*vəsiqəsinə dair məlumat (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı)*

*Lisenziyanın qüvvədə olduğu müddət _______ il.*

Lisenziyanı təsdiq edən məsul şəxs _______________________________________

________________________________________________________________________

*(adı, soyadı)*

Vəzifəsi _________________________________________________________________

M.Y.

__________________________

*(imza)*

© *VneshExpertService LLC*